UOT 94(479.24)

KƏMALƏ HƏSƏNOVA
Azərbaycan Dillər Universitetinin
Beynəlxalq münasibətlər kafedrasının müəllimi,
tarix üzrə fəlsəfə doktoru
kamala.hasanova.02@mail.ru

AZƏRBAYCANIN GUAM PARLAMENT ASSAMBLEYASI İLƏ MÜNASİBƏTLƏRİ (2004-2022-ci illər)

DOI: https://doi.org/10.36719/2708-065X/107/108-111

Məqalədə dövlət müstəqilliyinin bərpa edilməsindən sonra Azərbaycanın GUAM və onun Parlament Assambleyası ilə münasibətləri araşdırılmışdır. Müəllif GUAM Parlament Assambleyasının yaranması, məqsədləri və fəaliyyət istiqamətlərini tədqiq etmiş, əməkdaşlıq sahələrini göstərmiş, üzv ölkələrdə münaqişələrin, separatizmin qarşısının alınmasında qurumun rolu tədqiqat obyekti olmuşdur.

Açar sözlər: parlament, əməkdaşlıq, assambleya, qanunvericilik, komitə, nümayəndə heyəti.

Giriş. Müstəqil Azərbaycanın xarici siyasətində beynəlxalq təşkilatlarla əməkdaşlıq mühüm yer tutur. Beynəlxalq təşkilatlarla əlaqələr Azərbaycanın beynəlxalq cəmiyyətin bir hissəsi olması, regionda münaqişələrin, separatizmin qarşısının alınması, regional əməkdaşlıq və model qanunların qəbul edilməsi baxımından mühüm əhəmiyyətə malikdir. Azərbaycanın əməkdaşlıq etdiyi mühüm regional təşkilatlardan biri Gürcüstan, Ukrayna, Azərbaycan və Moldovanı birləşdirən GUAM və onun Parlament Assambleyasıdır. GUAM Parlament Assambleyası (GUAM PA) GUAM-ın məqsədlərinin həyata keçirilməsi və müasir dünyada parlamentarizmin, demokratiyanın inkişafı zərurətindən yaranmışdır.

Azərbaycanla GUAM arasında əməkdaşlığa dair bir sıra araşdırmalar olsa da, onun parlament assambleyası ilə əlaqələrin istiqamətlərinə dair tədqiqatlar qənaətbəxş deyil. Ona görə də yeni resurs və ədəbiyyatlardan istifadə etməklə, mövzunun araşdırılması elmi yenilik səciyyəsi daşıyır, eyni zamanda Azərbaycan tarixinə, onun xarici siyasətinə, beynəlxalq diplomatik fəaliyyətinə verilmiş töhfədir.

GUAM Parlament Assambleyasının yaradılması və fəaliyyət istiqamətləri. Təsisçiləri Azərbaycan, Gürcüstan, Moldova və Ukraynadan ibarət olan GUAM 1997-ci il oktyabrın 10-da Avropa Şurasının Strasburq şəhərində keçirilmiş Zirvə görüşündə yaradılmışdır.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev GUAM-ın yaradılması və inkişaf etdirilməsində mühüm əhəmiyyət verirdi. Heydər Əliyev GUAM-ın 1999-cu il 24 aprel tarixli Vaşinqton və 2001 və 2002-ci illərdə Yaltada keçirilən zirvə toplantılarında iştirak etmişdir. Vaşinqton zirvə görüşündən sonra Prezident Heydər Əliyev GUAM təşkilatının səmərəli fəaliyyətini, ona daxil olan ölkələrin iqtisadi və daha çox Transqafqaz magistralı vasitəsilə əməkdaşlıq məqsədlərinə xidmət etdiyini vurğulamışdır [2].

2001-ci il iyunun 7-də GUÖAM-ın Yalta Xartiyasının qəbulu GUÖAM-ın tam hüquqlu beynəlxalq təşkilata çevrilməsi prosesinin əsasını qoydu. Təşkilat çərçivəsində nəqliyyat dəhlizlərinin, xüsusilə Avropa – Qafqaz – Asiya dəhlizinin daha da inkişafına və səmərəli fəaliyyətinin təmin edilməsinə, ticarət-iqtisadi əlaqələrin genişləndirilməsinə xüsusi diqqət yetirilir [9]. 2006-cı il mayın 23-də isə Kiyevdə keçirilmiş Zirvə Görüşündə iştirakçı dövlətlər GUAM-ın nizamnaməsini qəbul etmiş və GUAM, Demokratiya və İqtisadi İnkişaf naminə Təşkilata çevrilmişdir. Demokratiya və iqtisadi inkişaf, regional təhlükəsizlik və iqtisadi əməkdaşlığın ticarət, nəqliyyat, gömrük, turizm, texnologiyalar kimi sahələri GUAM çərçivəsində əməkdaşlığın prioritet istiqamətləri hesab olunur [1].

Münaqişələrin həlli baxımından GUAM-ın mövqeyi önəmli olsa da, onun imkanları kifayət qədər məhduddur. GUAM Müstəqil Dövlətlər Birliyinə balans olaraq yaradılmış bir qurumdur və SSRİ-nin yeni şəkildə formalaşmasına imkan verməməli idi [5]. Postsovet ölkələri aydın dərk edirdilər ki, MDB formatında fəaliyyət onların iqtisadi inkişaf məqsədlərinin reallaşdırılmasını təmin et-

mək iqtidarında deyil. Bu baxımdan, üzv ölkələrin həm iqtisadi inkişafı, həm də Avropaya inteqrasiyası üçün GUAM kimi regional bir təşkilatın yaradılması əhəmiyyət kəsb edirdi [7, s.65]. GUAM-a üzv ölkələr öz maraqlarının təmin olunması istiqamətində vahid mövqedən çıxış etməyi prinsipial hesab edirdilər. Məsələn, 2008-ci ilin mart ayının 14-də "Azərbaycanın işğal altında olan ərazilərində vəziyyətə dair" BMT qətnaməsinə bütün üzv ölkələr səs vermişlər [7, s.70].

Azərbaycan təşkilat çərçivəsində ticarət, nəqliyyat, gömrük, enerji, turizm, texnologiyalar və kənd təsərrüfatı sahələrində qarşılıqlı faydalı əməkdaşlığa xüsusi əhəmiyyət verir, ticarət və nəqliyyatın asanlaşdırılması və rəqəmsallaşdırılması üzrə layihələrin təşəbbüskarı və fəal iştirakçısıdır. Azərbaycan 2007, 2012, 2016 və 2020-ci illərdə GUAM-a sədrlik etmiş, həmçinin 2011-2012, 2019-2020-ci illərdə nəqliyyat üzrə, 2011-2012, 2015-2016-cı illərdə informasiya texnologiyaları üzrə, 2013-2014-cü illərdə mədəniyyət və turizm üzrə, 2011-2018-ci illərdə energetika üzrə işçi qruplarının koordinatoru olmuşdur [8].

GUAM İşgüzar Şurası və GUAM Parlament Assambleyası onun əlaqədar təşkilatlarıdır [1]. Təşkilatın əməkdaşlıq layihələrinə qanunvericilik dəstəyinin göstərilməsi, daxili qanunvericiliyin beynəlxalq standartlara uyğunlaşdırılması məqsədilə Kiyevdə, 2004-cü ildə GUAM Parlament Assambleyası yaradıldı [9].

GUAM Parlament Assambleyası üzv dövlətlərin milli parlament nümayəndə heyətlərindən ibarətdir. Milli parlament nümayəndə heyətlərinin tərkibi ən azı 6 nümayəndədən formalaşır. Assambleya GUAM ölkələri arasında ticarət-iqtisadi, mədəni və siyasi əməkdaşlığın inkişafı sahəsində qanunvericilik bazasının təkmilləşdirilməsinə, o cümlədən GUAM dövlət başçılarının görüşlərində qəbul edilmiş qərarların həyata keçirilməsinə töhfə verir. Assambleya həmçinin GUAM ölkələrində demokratik təsisatların möhkəmlənməsinə və GUAM ilə beynəlxalq və regional təşkilatlar arasında əməkdaşlığın inkişafına kömək edir. Assambleyanın işçi orqanları Assambleya Bürosu və komitələridir. Assambleyanın sədri GUAM-a sədrlik edən ölkənin parlament nümayəndə heyətinin rəhbəridir. Assambleyanın Bürosu milli parlament nümayəndə heyətlərinin rəhbərlərindən ibarətdir.

Assambleyanın bürosu təşkilatın səmərəli fəaliyyətini təmin etmək üçün məsuliyyət daşıyır. Büro gündəliyin layihəsini və Assambleyanın iclaslarının keçirilmə yerini, habelə Assambleyanın iclaslarını müəyyən edir. Büro konsensus əsasında qərarlar qəbul edir. Büro iclasları ildə bir dəfə keçirilir. Sədrin və ya ən azı iki milli parlament nümayəndə heyətinin təklifi ilə növbədənkənar iclaslar keçirilə bilər. Assambleya ildə bir dəfə toplanır. Hər milli parlament nümayəndə heyəti bir səsə malikdir. Assambleyanın qərarları konsensusla qəbul edilir.

Assambleyanın dörd komitəsi var: hüquq, ticarət və iqtisadi, siyasi və regional təhlükəsizlik, elm, mədəniyyət, təhsil və idman komitələri təşkilatın praktik fəaliyyətini həyata keçirir. Hər milli parlament nümayəndə heyəti hər komitədə iki nümayəndə ilə təmsil olunur. Nümayəndə heyətinin hər bir üzvü yalnız 1 səsə malikdir. Komitələr Assambleyanın, Büronun qəbul etdiyi qərara uyğun olaraq onlara verilmiş bütün məsələlərə baxmaq səlahiyyətinə malikdirlər. Komitələr əsas məruzəçilərin təqdim etdiyi məruzələri müzakirə edir və bəyannamə layihələri barədə qərar qəbul edirlər [11].

Azərbaycanın GUAM Parlament Assambleyasında iştirakının prioritet sahələri. Azərbaycan, Ukrayna, Gürcüstan və Moldova arasında əməkdaşlığın dərinləşdirilməsinə kömək üçün yaradılan GUAM Parlament Assambleyasının əsas məqsədi üzv ölkələrdə demokratiya və qanunun aliliyi prinsiplərini daha da möhkəmləndirmək, insan hüquq və azadlıqlarını təmin etmək, parlamentlərarası dostluq münasibətlərini və əməkdaşlığı genişləndirməkdir [4].

GUAM Parlament Assambleyasının əsas fəaliyyət istiqamətlərində dövlətlərin ərazi bütövlüyü və sərhəd toxunulmazlığı məsələləri hər zaman aktual olmuşdur [6]. 2012-ci il dekabrın 19-20-də Bakı şəhərində GUAM Parlament Assambleyasının 5-ci iclası keçirilmiş və təşkilatın kommünikesi qəbul edilmişdir [13]. Sessiyada GUAM-a üzv dövlətlərin Şərq Tərəfdaşlığı çərçivəsində Avrointeqrasiya proseslərində iştirakı, regional və beynəlxalq təhlükəsizliyin təmin edilməsində çoxtərəfli parlamentlərarası əməkdaşlığın əhəmiyyəti, Avropanın enerji təhlükəsizliyinin təmin edilməsində GUAM regionunun enerji potensialı məsələləri müzakirə olunmuşdur [8]. Sessiyada qəbul olunmuş kommünikedə GUAM Parlament Assambleyasının demokratiyanın möhkəmləndirilməsi, qanunların, insanların əsas hüquq və azadlıqların aliliyinə riayət olunmasında rolu, Avropanın enerji təhlükəsizli-

yinin təmin olunmasında Azərbaycanın verdiyi töhfə yüksək dəyərləndirilmiş və GUAM-a daxil olan ölkələrdə həyata keçirilən enerji layihələri dəstəklənmişdir [10].

GUAM PA-nın IX sessiyasının 2016-cı il dekabrın 15-də Azərbaycanda keçirilməsi mühüm əhəmiyyətə malik idi. Sessiyada müasir dünyada parlament diplomatiyasının əhəmiyyəti və rolu, onun ənənəvi diplomatiya mexanizmlərini tamamlayaraq zənginləşdirdiyi, dövlətlər arasında mövcud olan məsələlərin həllinə, sivilizasiyalar arasında dialoq üçün maneələrin aradan qaldırılmasına səmərəli töhfə verdiyi vurğulanmışdır. Sessiyada Azərbaycan nümayəndə heyəti ölkələrin təhlükəsizliyinin və suverenliyinin təmin olunması, beynəlxalq səviyyədə tanınan sərhədlər çərçivəsində ərazi bütövlüyünün bərpası, həmçinin enerji təhlükəsizliyi, beynəlxalq nəqliyyat dəhlizi və multikulturalizm məsələlərinin böyük əhəmiyyət kəsb etdiyini vurğulamışdır [3].

Tbilisidə GUAM Parlament Assambleyasının 10-cu iclası 2017-ci il dekabr ayının 17-18-də keçirilmişdir. Təşkilatın yaradılmasının 20 illik yubileyi münasibəti ilə keçirilən iclasda Azərbaycan nümayəndə heyəti səmərəli parlamentlərarası dialoqun, eləcə də GUAM Parlament Assambleyası ilə digər regional parlament təşkilatları arasında qarşılıqlı fəaliyyətin reallaşdırılmasının regionlararası əməkdaşlığın effektiv mexanizmi kimi vacibliyini bir daha qeyd etmişdir [8].

2022-ci il noyabrın 28-də Moldovanın sədrliyi ilə keçirilən GUAM Parlament Assambleyasının 15-ci sessiyası təhlükəsizlik məsələlərinin müzakirəsi və parlamentlərarası dialoq baxımından əhəmiyyətə malik idi. Azərbaycan nümayəndə heyətinin iştirak etdiyi sessiyada Ukraynada, Gürcüstanda separatizm amilləri müzakirə edilmiş, Ukraynanın ərazi bütövlüyü dəstəklənmişdir. Assambleyada beynəlxalq səviyyədə tanınmış sərhədləri daxilində suverenliyin və ərazi bütövlüyünün qarşılıqlı tanınması və hörməti əsasında, o cümlədən sülh müqaviləsinin imzalanması yolu ilə Ermənistan və Azərbaycan arasında dövlətlərarası münasibətlərin normallaşdırılması ilə bağlı Azərbaycanın mövqeyi dəstəklənmişdir [12].

Nəticə. Parlament diplomatiyasının inkişafı demokratik idarəçilik, insan hüquq və azadlıqlarının qorunması və bu sahədə qanunların qəbul edilməsinin əhəmiyyəti təşkilatın parlament qanadının – GUAM Parlament Assambleyasının yaradılmasını şərtləndirdi. Azərbaycan həm təşkilatın, həm də onun parlament assambleyasının yaradıcısı və fəal üzvlərindən oldu. Buna görə də sivilizasiyalarası dialoqun təmin edilməsi, enerji, nəqliyyat və ərazi-sərhəd zəminində münaqişələrin qarşısının alınmasında təşkilat çərçivəsində mütəmadi müzakirələr aparılmış və müəyyən qərarlar qəbul edilmişdir.

ƏDƏBİYYAT

1. Azərbaycan – Demokratiya və İqtisadi İnkişaf naminə Təşkilat (GUAM): [Elektron resurs] / – URL: https://mfa.gov.az/az/category/regional-teskilatlar/azerbaycan-demokratiya-ve-iqtisadi-inkisaf-namine-teskilat-guam [19.06.2024].
2. Azərbaycan – Demokratiya və İqtisadi İnkişaf Naminə Təşkilat (GUAM) münasibətləri: [Elektron resurs] / – URL: https://lib.aliyev-heritage.org/az/ 5509377.html [19.06.2024].
3. Bakıda GUAM Parlament Assambleyasının IX sessiyası keçirilib: [Elektron resurs] / – URL: https://www.yeniazerbaycan.com/Siyaset_e32571_az.html [19.06.2024].
4. GUAM: iqtisadi-siyasi və mədəni əlaqələr: [Elektron resurs] / – URL: http://www.anl.az/down/guam.pdf [19.06.2024].
5. GUAM – "ölü doğulmuş" təşkilat, yoxsa "söz sahibi olmaq üçün" vasitə?: [Elektron resurs] / – URL: https://www.bbc.com/azeri/region-41572633 [19.06.2024].
6. GUAM Parlament Assambleyası: [Elektron resurs] / – URL: https://meclis.gov.az/ news-bey.php?id=97 &lang=az&cat=108 [19.06.2024].
7. Xəlilova H. GUAM çərçivəsində Azərbaycan – Ukrayna münasibətləri // Uluslararası türk dünyası araşdırmalarə dərgisi, – Temmuz 2018, Cilt: 1, Sayı: 1, – s.62-71.
8. Qasımov E. Azərbaycanın GUAM ölkələri ilə əməkdaşlığı regionda sabitliyə və inkişafa xidmət edir: [Elektron resurs] / – URL: https://respublika-news.az/news/ azerbaycanin-guam-olkeleri-ile-emekdasligi-regionda-sabitliye-ve-inkisafa-xidmet-edir [19.06.2024].

9. ГУАМ: История и институциональное становление: [Электронный ресурс] / – URL: https://guam-organization.org/guam-organizatsiya-za-demokratiyu-i-ekonomicheskoe-razvitie-istoriya-i-institutsionalnoe-stanovlenie/ [19.06.2024].
10. Коммюнике 5-го заседания Парламентской Ассамблеи ГУАМ: [Электронный ресурс] / – URL: https://guam-organization.org/kommyunike-5-go-zasedaniya-parlamentskoj-assamblei-guam/ [19.06.2024].
11. Правила процедуры Парламентской Ассамблеи ГУАМ: [Электронный ресурс] / – URL: https://guam-organization.org/pravila-procedury-parlamentskoj-assamblei-guam-v-redakcii-18-12-2017/ [19.06.2024].
12. Communique of the 15th Session of the GUAM Parliamentary Assembly: [Electronic resource] / – URL: https://guam-organization.org/en/communique-of-the-15th-session-of-the-guam-parliamentary-assembly/ [19.06.2024].
13. 5th Meeting of GUAM Parliamentary Assembly in Baku: [Electronic resource] / – URL: https://guam-organization.org/en/5th-meeting-of-guam-parliamentary-assembly-in-baku/ [19.06.2024].

КАМАЛА ГАСАНОВА
Преподаватель кафедры международных отношений Азербайджанского университета языков, доктор философии по истории

ОТНОШЕНИЯ АЗЕРБАЙДЖАНА С ПАРЛАМЕНТСКОЙ АССАМБЛЕЕЙ ГУАМ (2004-2022 гг.)

В статье рассматриваются отношения Азербайджана с ГУАМ и его Парламентской ассамблеей после восстановления государственной независимости. Автор исследовал создание, цели и деятельность Парламентской ассамблеи ГУАМ, обозначил направления сотрудничества, а объектом исследования стала роль института в предотвращении конфликтов и сепаратизма в странах-участницах.

Ключевые слова: парламент, сотрудничество, ассамблея, законодательство, комитет, делегация.

KAMALA HASANOVA
Lecturer of the Department of International Relations, Azerbaijan University of Languages, PhD in History

RELATIONS OF AZERBAIJAN WITH THE PARLIAMENTARY ASSEMBLY OF GUAM (2004-2022)

In the article Azerbaijan's relations with GUAM and its Parliamentary Assembly have been investigated. The author studied the establishment, goals and activities of the GUAM Parliamentary Assembly, indicated the areas of cooperation, and the role of the institution in preventing conflicts and separatism in the member countries was the object of research.

Keywords: parliament, cooperation, assembly, legislation, committee, delegation.

Məqalənin redaksiyaya daxil olduğu tarix: 19 iyun 2024-cü il.
Məqalənin çapa qəbul olunma tarixi: 15 noyabr 2024-cü il.
Rəyçilər: t.ü.f.d. Samirə İmanova, t.ü.f.d. Məmmədağa Baxışov.